# MİRZƏ ƏLƏKBƏR SABİR HAQQINDA ÇƏKİLƏN FİLMLƏR



***Sabir (Film, 1962)***- *Tarixi-bioqrafik film satirik şair Mirzə Ələkbər Sabirin anadan olmasının 100 illiyinə həsr edilmişdir.*

*Film tamaşaçıları rəssam Əzim Əzimzadənin rəsmləri vasitəsilə keçmişə- Sabirin yaşayıb yaratdığı dövrə qaytarır. Filmə ayr-ayrı səhnəciklər də daxil edilmişdir. Burada Sabir çıxış edir. Filmdə Cənubi azərbaycanlıların öz azadlıqları uğrunda apardığı mübarizə Sabirin qələminin qüdrətində öz əksini tapmışdır. Eyni zamanda filmdə qadın azadlığı mövzusuna da toxunulmuşdur. Son kadrlar Bakıda və Moskvada keçirilən təntənəli iclaslarla başa çatır.*

***Mənbə:*** *Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası. Aydın Kazımzadə. Bizim "Azərbaycanfilm". 1923-2003-cü illər. Bakı: Mütərcim, 2004.- səh. 170-179.*

***Ağlar-Güləyən (Film, 1988)***- *Ağlar-güləyən qısametrajlı sənədli-bədii filmi rejissor Rauf Nağıyev tərəfindən* 1988*-ci ildə ekranlaşdırılmışdır.* Film *"Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Tədris filmində böyük satirik şair Mirzə Ələkbər Sabirin yaradıcılığının əsas cəhətlərindən söhbət açılır. Əyani dərs vəsaiti kimi yaradılmış bu filmdə qızı Səriyyənin atası barədə xatirələri, şairin müasirlərinin onun haqqında söylədikləri fikirlər səslənir. Filmdə bədii səhnələrdə Məlik Dadaşov, Mikayıl Mirzə, Əbdül Mahmudov,* Sirus Zindadel, *Həsən Adıgözəlzadə və Alim Aslanov çəkilmişlər.*

***Səbrli Adamin Fəryadi (Sənədli televiziya filmi, 2002)***- *Film Mirzə Ələkbər Sabirin həyat və yaradıcılığına həsr olunub.Ssenari müəllifi Firudin Qurbansoy, rejissor Vüqar Kamranoğlu, operator: Rüfət Məmmədoğlu və Rəşad Nuriyevdir. Sənədli Bioqrafik filmdir.*